# ƏMTQ Qanun layihəsində Strateji Ekoloji Qiymətləndirmə (SEQ) prosedurunun başlıca addımları

***Aysel Babayeva***

AR ETSN, Dövlət Ekspertiza İdarəsinin baş məsləhətçisi

BMT AİK-in Transsərhəd Ətraf Mühitə Təsirin Qiymətləndirilməsi üzrə Konvensiyasının (Espoo Konvensiyası) milli əlaqələndiricisi

ayselbabasoylu@yahoo.com

ETSN

# ƏMTQ haqqinda Qanun layihəsi

**ƏMTQ haqqında qanun layihəsi ətraf mühitin 2 əsas qiymətləndirmə mexanizmini özündə birləşdirir:**

* **Ətraf Mühitə Təsirin Qiymətləndirilməsi (ƏMTQ )**
* **Strateji Ekoloji Qiymətləndirmə (SEQ)**

Azərbaycanda mövcud dövlət ekoloji qiymətləndirmə mexanizmi (ekoloji ekspertiza sistemi, Ətraf Mühitin Mühafizəsi haqqında Qanun, M.54-58) ilə bu alətlərin icrasına nəzarət ediləcəkdir (Qanun layihəsində nəzərdə tutulur).

Qanun Parlamentə təqdim olunmuş (2018), **29 mart 2018-ci il tarixdə** ilk müzakirədən keçmişdir. Qanun layihəsi ETSN-nin təşəbbüsü ilə EU EaP GREEN proqramının və BMT AİK Espoo Konvensiyasının dəstəyi ilə təkmilləşdirilmişdir.

ƏMTQ sahəsində 1996-cı ildən bəri genişlənmiş praktik təcrübə mövcuddur. SEQ üzrə 2014-cü ildə milli səviyyədə alternativ enerji sektorunda pilot layihə və Bakı şəhərinin regional inkişaf planı üçün icra edilmişdir.

## Ətraf Mühitə Təsirin Qiymətləndirilməsi haqqında qanun layihəsində SEQ anlayışı (Maddə 1 )

**Maddə 1.1.3**

**Strateji ekoloji qiymətləndirmə (bundan sonra SEQ)**

ətraf mühitə potensial təsirlərin aşkarlanması, qarşısının alınması və ətraf mühitdən səmərəli istifadənin təmin edilməsi məqsədi ilə strateji sənədlərin, ərazi planlaşdırılması sənədlərinin ekoloji təhlükəsizlik baxımından sistemli qiymətləndirilməsi;

**Maddə 1.1.4 SEQ sənədi**

Strateji ekoloji qiymətləndirmənin nəticələri barədə hesabat;

**Maddə 1.1.7. Strateji sənədlər**

Bu Qanunun 7.1.1-ci maddəsində göstərilən sahələr üzrə **plan, proqram, strategiya və konsepsiyalar;**

# SEQ-in tətbiqi sahələri və «screening» (Maddə 7)

**Aşağıdakı sektorlara aid strateji sənədlər screening edilmədən SEQ obyekti hesab edilir.**

* Kənd təsərrüfatı
* Meşəçilik
* Balıqçılıq
* Enerji
* Sənaye
* Nəqliyyat
* Tullantıların idarəolunması
* Suyun idarə olunması
* Torpaq ehtiyatlarının istifadəsi
* Turizm və telekommunikasiya sahələri üzrə strateji sənədlərin layihələri

* Ərazi planlaşdırılması sənədlərinin layihələri
* Ətraf mühitin mühafizəsi və ekoloji təhlükəsizlik sahəsində Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq və konsessiya müqavilələrindən irəli gələn layihələr.

Fövqəladə hallar, dövlətin müdafiəsi, habelə maliyyə və büdcə məsələlərinə xidmət ilə bağlı strateji sənədlərə SEQ tətbiq edilmir.

# Strateji sənədlərə dəyişikliklər edilməsi və «screening» (Maddə 7.3 və 7.4)

* **SEQ aparılmış strateji sənədlərdə dəyişikliklər edilməsi zərurəti yarandıqda**

Planlaşdırıcı orqan dəyişikliyin mahiyyəti və həcmini nəzərə alaraq, müvafiq icra hakimiyyəti orqanı ilə razılaşdırmaqla SEQ-in aparılması və ya aparılmaması barədə qərar qəbul edir.

* **SEQ aparılmamış strateji sənədlərdə dəyişikliklər edilməsi zərurəti yarandıqda**

Həmin dəyişikliklərin mahiyyəti və həcmindən asılı olaraq planlaşdırıcı orqan tərəfindən müvafiq icra hakimiyyəti orqanı ilə razılaşdırmaqla SEQ-in aparılması barədə qərar qəbul edir və SEQ bu strateji sənədlərə münasibətdə bütövlükdə aparılır.

Hər iki halda SEQ-in tətbiqi qərarı qəbul edilərsə, bu halda SEQ sənədinin hazırlanması və ekoloji ekspertiza rəyinin alınması ilə bağlı bu Qanunun müvafiq müddəaları tətbiq edilir.

# SEQ üzrə başlıca mərhələlər (Maddə 8 və digər çərçivə müddəalar)

## Maddə 8.1

SEQ strateji sənəd üzrə *potensial təsirlərin həcminin müəyyən olunması*, *mümkün təsirlərin təhlili və qiymətləndirilməsi*, *nəticələr üzrə ətraf mühitin mühafizəsi tədbirlərinin müəyyən edilməsi*, *SEQ sənədinin tərtib olunması*, *müvafiq icra hakimiyyəti orqanları ilə ilkin məsləhətləşmələrin aparılması, habelə ictimai dinləmələrin təşkili*, *planlaşdırıcı orqan tərəfindən nəticələr üzrə müvafiq yekun əsaslandırmanın hazırlanmasından* ibarətdir.

Qərarvermə və SEQ nəticələrinin monitorinqi qanun layihəsinin ƏMTQ və SEQ sahəsində idarəetmə fəslində ümumi qeyd olunmuşdur.

## Maddə 8.2

SEQ-nin aparılması qaydası müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilir.

# SEQ üzrə mərhələlər (Maddə 8)

tensial təsirlərin həcminin müəyyən olunması

(scoping)

Mümkün təsirlərin təhlili və qiymətləndirilməsi (Maddə 8.1)

Nəticələr üzrə ətraf mühitin mühafizəsi tədbirlərinin müəyyən edilməsi

SEQ Hesabat sənədinin tərtib olunması (Maddə 8.3 , 8.10)

Məsləhətləşmələrin aparılması

(Maddə 8.4, 8.6)

İctimai dinləmə (Maddə 8.1, 8.5, 8.10.8, 10.1.2, 13)

Qərarvermə (Maddə 8.6 və 8.7)

Sonrakı mərhələdə dövlət orqanları və planlaşdırma orqanı, habelə ictimaiyyət tərəfindən icraya nəzarət (Maddə 9,10, 13 )

# SEQ HESABATI (Maddə 8.8, 8.9 və 8.10 və digər ümumi müddəalar)

SEQ sənədinə aşağıdakılar barədə məlumatlar daxil edilir:

* strateji sənədin məzmunu, əsas məqsədləri və onun digər strateji sənədlərlə əlaqəsi;
* strateji sənəd və SEQ üzrə istinad edilən normativ hüquqi baza;
* strateji sənədin beynəlxalq və milli səviyyədə qəbul edilən ətraf mühit və davamlı inkişaf hədəflərinə uyğunluğu;
* strateji sənədin təsir dairəsinə aid edilən ərazidə ətraf mühitinin mövcud vəziyyəti;
* strateji sənədin icrası ilə əlaqədar  potensial təsir mənbələri və onların ətraf mühitə və insan sağlamlığına mümkün təsirləri;
* strateji sənəddə nəzərdə tutulan hədəflər və təkliflər üzrə alternativ variantların, seçimin ekoloji səmərəliliyinin əsaslandırılması;
* potensial təsirlərin təhlili, onların qarşısının alınması, azaldılması və  yumşaldılması tədbirləri;
* ictimai dinləmələrin və müzakirələrin nəticələri.

SEQ sənədinin hazırlanmasına görə xidmət haqqı planlaşdırıcı orqan tərəfindən ödənilir.

# SEQ və planlaşdırmanın əlaqələndirilməsi (Maddə 6 və 8)

- SEQ-in məqsədi ƏMTQ-nin və dövlət ekoloji ekspertizasının planlaşdırma mərhələsində effektivliyinin təmin edilməsi olaraq qeyd olunur.

  **(Maddə 6.2)**

- SEQ **strateji sənədlərin hazırlanması mərhələsində** planlaşdırıcı orqan tərəfindən aparılır.

- SEQ-lə bağlı müvafiq icra hakimiyyəti orqanları ilə **ilkin məsləhətləşmələr** aparır. (**Maddə 8.3 və 8.4**)

# İctimai dinləmə
# (Mddə 8.1, 8.5, 8.10.8, 8.10.8, 10.1.2, 13)

## Maddə 8.5

SEQ-in həyata keçirilməsi ilə bağlı ictimai dinləmələr bu Qanunun 4.10-cu və 4.11-ci maddələrinin tələbləri nəzərə alınmaqla təşkil olunur.

## Maddə 10.

Planlaşdırıcı orqanın vəzifələrinə SEQ-in həyata keçirilməsi ilə əlaqədar ictimai dinləmələri təşkil etmək...daxil edilmişdir

## Maddə 13.

**ƏMTQ və SEQ sahəsində fiziki şəxslərin və vətəndaş cəmiyyəti institutlarının vəzifələri və hüquqlarına** ƏMTQ və SEQ-lə bağlı ictimai dinləmələrin keçirilməsini sifarişçidən və planlaşdırıcı orqandan tələb etmək...daxil edilmişdir

# Dövlət Ekoloji Ekspertiza Sistemi
# Ətraf Mühitin Mühafizəsi haqqında Qanun, Maddə 54
# ƏMTQ haqqında təlimat , 1996

**Layihələndirmə mərhələsi üzrə**
**ƏMTQ və ya EMSTQ sənədləri**
**Texniki İqtisadi Əsaslandırma (TİƏ)**

**Plan və programlar**

***ƏMTQ haqqında Qanun layihəsinin qəbulundan sonra SEQ hesabatları DEİ-yə rəy bildirilməsi üçün təqdim edilir. (Maddə 8.3, 8.4 , 8.6, 9.0.4 və 10.1.3, 10.1.4)***

**ETSN, DEI**

# Qərarvermə (Maddə 8.6 və 8.7)

**Müvafiq icra hakimiyyəti orqanı (burada ETSN)** planlaşdırıcı orqanın təqdim etdiyi SEQ sənədini ekoloji ekspertizadan keçirir, ekspertizanın nəticəsindən asılı olaraq ona dair **ekoloji ekspertiza rəyi verir** və həmin rəyin rəsmi internet səhifəsində yerləşdirilməsini təmin edir.

**Planlaşdırıcı orqan** SEQ sənədini və SEQ-in nəticələri üzrə verilən ekoloji ekspertiza rəyini, habelə strateji sənədin layihəsində tərəfindən nəzərə alınan və alınmayan yekun **əsaslandırılmış təkliflərini müvafiq icra hakimiyyəti orqanına (burada strateji sənədi təsdiqləyən orqan- NK)** təqdim edir.

# SEQ nəticələrinə nəzarət-monitorinq (Maddə 9 və 10 )

**ƏMTQ və SEQ sahəsində dövlətin vəzifələrinə** dövlət nəzarətinin təşkili və həyata keçirilməsi daxildir.

Ətraf Mühitin Mühafizəsi haqqında qanunda ekoloji ekspertiza üzrə müvafiq dəyişikliklər aparılmışdır.

Müvafiq SEQ nəticələrinin ƏMTQ ilə uzlaşdırılması üçün ekoloji ekspertiza əsas hesab edilir.

**Planlaşdırıcı orqanın vəzifəsi** strateji sənəd üzrə layihələri ekoloji ekspertiza rəyinə uyğun olaraq həyata keçirmək.

**İctimaiyyət** nəzərdə tutulan fəaliyyətə dair ekoloji ekspertiza rəyi ilə tanış olmaq və onun icrasını tələb etmək;

# References

- SEQ üzrə **Aİ Direktivi 2001/42/EC**
- **BMT AİK, Espoo Konvensiyası SEQ Protokolu** (Kiyev, 2003) və **BMT AİKin SEQ üzrə təlimat vəsaiti (2010 əvvəlki buraxılış, 2018-ci ildə sonuncu buraxılışı azərbaycan dilinə də tərcümə edilmişdir) bax: www.unece.org**
- **Dünya Bankı Təlimat - (**Integrating Environmental Considerations in Policy Formulation: Lessons from Policy-Based SEA Experience (Report No. 32783) 2005**)**
- **OECD (Avropa İqtisadi Əmkdaşlıq və İnkişaf Təşkilatı)Təlimatı – «**Task Team on Strategic Environmental Assessment (SEA) and first Guidence» 2004
- **BMT AİK-in SEQ Protokolu üzrə məlumatlandırma videosu** azərbaycan dilinə ETSN-nin müraciəti ilə EaP GREEN proqramının dəstəyi ilə tərcümə edilmişdir. Bax: **https://www.youtube.com/watch?v=9J7cKCNB2-E**
- **Azərbaycanda 2013-2017-ci illər ərzində SEQ üzrə EaP GREEN proqramının dəstəyi ilə icra edilmiş məlumatlandırma kitabçası**

# Təşəkkür edirik!

www.eco.gov.az